**UOT 791.43**

**Qurbanov Nizami Zaur oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət**
**və İncəsənət Universiteti**
**Magistrant**
**E-mail: qniko98@mail.ru**

# "BABƏK" FİLMİNDƏ KİNOOPERATOR İŞİ

**Xülasə:** Məqalə kinooperator Rasim İsmayılovun operatoru olduğu maraqlı, yüksək keyfiyyətli, sənət nümunələrindən biri olan Babək filmindən bəhs edir. Rasim İsmayılov, "Babək" filminin operatoru kimi, təsvir həllinə çox fəal şəkildə qatılmış və filmə müstəqil və unikal bir görünüş vermişdir. Rasim İsmayılovun filmdə ən çox diqqət yetirdiyi amillərdən biri də işıqlandırmadır. Rasim İsmayılov "Babək" filminin operatoru kimi, filmə vizual baxımdan dəyərli və özünəməxsus bir estetika bəxşiş etmişdir. İsmayılov, hər bir kadrı mənalı və gözəl tərzi ilə təsvir etmiş və filmə tarixi və mədəni atmosfer yaratmaqda əsas rol oynamışdır.

**Açar sözlər:** Rasim İsmayılov, kinooperator işi, "Babək" filmi, kinolent, işıq-kölgə effekti, kompozisiya

Rasim İsmayılovun yaradıcılığının vacib, önəmli xüsusiyyətlərindən biri də kamerasının ğözü ilə məşhurlaşdırdığı kino personajlarının həyat mövqeyindən asılı olmayaraq, fərdi cəhətlərinə hörmətlə yanaşmasıdır. Prototipləri şəxsiyyət səviyyəsində təqdim edən, sənətini hər fürsətdə püxtələşdirən, çəkdiyi filmlərin texniki parametrləri ilə yanaşı, bədii keyfiyyətinin vəhdətinə də böyük önəm verən operator obrazlarının həyat mövqeyini dolğunluqla yaratmağa müvəffəq olub. Müxtəlif rakurslu çəkilişləri vasitəsilə (portret, iri plan, ümumi plan, orta plan və s.) kino qəhrəmanlarının şəxsiyyətini, fəaliyyətini, həmçinin dövrün və mühitin əhval-ruhiyyəsini, sosial şəraitini aydınlıqla, ətraflı şəkildə təhlil edib, maraqlı sənət nümunələri yaradıb.

İstedadlı operatorun maraqlı, yüksək keyfiyyətli, sənət nümunələrindən biri də 1979-cu ildə kinorejissor Eldar Quliyevin ekranlaşdırdığlı "Babək" filmidir. Tarixi qəhrəman Babək haqqında film çəkmək olduqca məsuliyyətli iş idi. Filmdə operator işinin dəqiqliyi diqqəti cəlb edir. Əvvəllər çəkdiyi rəngli filmlərdən fərqli olaraq operator quruluşçu rəssam Mais Ağabəyovun çəkdiyi dekorasiya və geyim eskizlərinin üzərində tədqiqat işləri apararaq, onların əsasında filmin rəng təsvir həllini təyin edir. Bu işdə ona rənglər atlası, qrim rəssamı ilə çalışma, kinolentin üzərində apardığı texniki eksponometriya və emal şəraiti kömək edirdi.

Dahi Nəsimidən sonra Rasim Balayevi Azərbaycan kinosunda illərlə öz estafetini qoruyub saxlamağa, onu xalqın yaddaşına həkk edən növbəti tarixi obraz Babək oldu. "Babək" filmi 70-80-ci illərdə aktyor üçün keçid rolunu oynadı.

"Babək" filminin əsas ideyasında dayanan ideoloji mübarizə əzmi baş qəhrəmanın ifasında öz yerini tapırdı. 20 ilə yaxın xalqının mənəvi azadlığı, əqidə sərbəstliyi

uğrunda inadlı mübarizə aparan Babək Azəri türklərinə öz siyasətini qılınc gücünə qəbul etdirmək istəyən ərəb xəlifəsi Mötəsimə qarşı qətiyyət göstərir. Onun xalqı heç vaxt, heç bir hökmdarın şəxsi istəyi qarşısında baş əyib, aman istəməmişdir. O, da bu ənənənin davamçısıdır və öz doğma xalqının mənafeyinə xidmət edir. Babək öz zəmanəsinin qəhrəmanı və xilafəti dəhşətə gətirən, kökündən sarsıdan əvəzolunmaz bir sərkərdədir. Məhz bu cür yenilməz bir sərkərdəni ekranda yaratmaq, onu Azərbaycan xalqı kimi uzaqgörən bir xalqa sevdirmək rejissordan və aktyordan böyük peşəkarlıq və istedad tələb edirdi.

Filmin ilk kadrlarında Babəki ustadı Cavidanla (Şahmar Ələkbərov) Bəzz qalasında qılınc döyüşdürərkən görürük. Qarşısında ustadı olmasına baxmayaraq, Babəkin qılınc vuran qolunda illərlə ərəb xilafətini diz üstə çökdürə biləcək bir gücün olduğunu görürük. Bu məqamda Cavidanla Babək arasında söhbətin şahidi oluruq. Söhbət xürrəmilər arasına nifaq salan Əbu İmrandan gedir. Babək Cavidanın Əbu İmrana qarşı mübarizə aparmaq fikrini biləndə etiraz səsini ucaldır.

– Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış. Bunun üçünmü mən vətənə qayıtdım? Bunun üçünmü mən dağlara qalxdım? Yox... Mən bura qardaş qırğınında iştirak etməyə gəlməmişəm. Azadlıq uğrunda bir nəfər şəhid olursa üç nəfər ayağa qalxır. Bu gün qətlə-qətlə dolan bir göz, sabah çalxalanan bir dərya olur. Mən gələcək qurtuluş ordusunun ilk döyüşçüsü kimi dağlara qalxdım. Ümid eliyirdim ki, o ordunun bayrağını sən qaldıracaqsan, – deyən aktyorun səsindəki əzəmətlik, ucalıq, ən əsası lazımi məqamlarda sözlərdə vurğunun düzgün vurması tamaşaçıda adi bir kəndli balasına qarşı sevgi, ümid hissinin oyanmasına gətirib çıxarır. Növbəti çıxışı Əbu İmranla (Yaşar Məmmədov) Cavidan arasında gedən döyüş zamanı görürük. Və nəhayət bu çıxışların kulminasya nöqtəsi Cavidanın ölümündən sonra Babəkin xalq qarşısında çıxışı oldu. Aktyor bu çıxışı ilə tamaşaçı qarşısında əzəmətli, yenilməz Babək obrazını yarada bildi və ən əsası sözü öz obrazlı təsəvvürlərini, fikir və hisslərini çatdırmaqda bir vasitəyə çevirdi. Mətnin üzərində görülən iş aktyorun hərəkətlərində, üzünün mimikasındakı yenilməz qəzəb hissi ilə qırılmaz bağlılığı obrazın tamamlanmasına müvəffəq olur. Kadrın əsasını mətn-söz təşkil edir. Sözdə anlaşılan fikir hədəfə çatmırsa, deməli ifadə olunan fikir obrazın həqiqət kultuna uyğun gəlmir. Məhz bu uyğunsuzluq bütün istiqamətlərə öz təsirini göstərərək zəif bir obrazın yaranmasına səbəb olur. Amma filmdə Babək obrazını kadrlara bölüb təhlil etsək görərik ki, hər kadrın özünəməxsus bir çəkisi var. Bu kadrlar ayrı-ayrılıqda hərəsi bir qısametrajlı filmdir. Növbəti kadrda Zərnisə, Babək və Buğdayı (Məmməd Verdiyev) görürük. Kadrda hadisənin mərkəzində Buğday durur. Bütün igidlər kimi Babək də oğlunun döyüşə getməsini, vətəni uğrunda məhz Babək kimi mübarizə aparmasını istəyir. Aktyorun orta planda görünən simasındakı oğlu Buğdaya qarşı qəzəb hissi bir cümlə ilə tamamlanır: – Amma mənim oğlum sağ-salamatdı. Buğdayın ağzından çıxan hər kəlməsinə qarşı hayqırtı ilə bağıran
Babək “amma mənim oğlum sağ-salamatdı” təkrarladıqca aktyor hər dəfə səsini bir pillə yüksəldərək Babəkin varlığını aliləşdirir, ucaldır.

Filmin ən təsirli səhnəsi ata ilə oğulun ölümqabağı görüşdüyü səhnədir. Bu kadrda hər iki aktyorun oyun manerası həqiqətən sənətkarlıq baxımından təqdirəlayiqdir. Rasim Balayev bütün aktyor imkanlarını səfərbər etmiş, nəticədə illərlə tamaşaçı yaddaşında Babək olaraq qalmışdır. Kamançanın müşayiəti ilə Babək Buğdaya tərəf irəlilədikcə panoram olunur.

– Zavallı. Sən heç vaxt anlamadın ki, azadlıq yanğısı nə deməkdir. O dəhşətli yanğı ki, ürəyi yandırıb külə döndərir. Azadlıq. İstər acı olsun, istərsə də şirin. Yalnız o idi məni döyüşdən döyüşə aparan. Elə güman edirdim ki, sən də bu yolun yolçusu olacaqsan. Lakin sən anlamadın ki, bu dünyada bircə gün azad yaşamaq 40 il boyunduruq altında sürünməkdən daha üstündür. Mənə irad tutmaq olardı. Çünki mən tuluqda zeytun satan kişinin oğlu idim. Amma sən Babəkin oğlu idin. Mənim ölümüm mənim üçün son silahdı. Dünyaya mərd gəlib, mərd gedənlərin silahı. Sənsə buna layiq olmadın.

Məhz elə kamil nəfəsə və səsə malik olan Rasim Balayev azadlığı Babəkin simasında xalqa Babək sayağı elə tərənnüm edir ki, xalq həqiqətən azadlıq yanğısının Babək üçün nə demək olduğunu duyur. Və nəhayət Afşin xəbər verir ki, "vidalaşa bilərsən oğlunla. O özünü vurdu". Aktyor bu səhnədə fikirlərini iki qatda tamaşaçıya çatdırmağa çalışır. O, oğlunu yerdə qan içində görür. Onun gözləri dolur. Hayqırmaq, "oğul", deyə bağırmaq istərdi. Üzündəki acı dolu qüssənin dərinliyi akyorun gözlərinə qonur. Dolmuş gözlərdən iki damla yaş süzülür. Lakin buna baxmayaraq o, boynunu bükmür. Babək vüqarını, əzəmətinin hər zaman yenilməzliyini qoruyub saxlayır. Gözlərindən axan yaşa baxmayaraq, o başını dik tutur. Aktyor estetikasına xas olan bu iki qatın bir arada yüksək peşəkarlıqla işlənilməsi aktyorun artıq kifayət qədər səhnə təcrübəsindən xəbər verir.

Ümumiyyətlə, filmdə professional bir Babək portretinin yaranmasına səbəb olan amillər təkcə aktyor oyunu ilə bitmir. Son dərəcə mükəmməl operator işi, rəssam işi və əvəzsiz musiqi tərtibatı bəstəkar Polad Bülbüloğlunun yüksək sənətkarlığı sayəsində illərlə ekranları zəbt edə biləcək bir Babək obrazının yaranmasına səbəb olmuşdur. Buğdayın ölüm səhnəsində Babək – Rasim Balayev operator Rasim İsmayılov tərəfindən panoram olunaraq əvvəl orta plana keçid alır. Bu məqamda aktyorun gözləri dolur. Üzündəki əzabverici oğul yanğısını tamaşaçıya daha aydın və təsirli çatdırmaq üçün orta, daha sonra isə başını hər zamankı kimi dik tutmasına baxmayaraq, oğul itkisinə dözə bilməyən Babəkin gözündən axan iki damla yaşı iri planda göstərməklə və ən əsası kamançanın müşayiəti obrazın təsir gücünün daha da artmasına nail olmuşdur. Musiqi həlli baxımından filmin ən maraqlı səhnələrindən biri Səhl Sumbatın toy məclisində Babəklə Pərvinin qarşılaşdığı səhnədir. İlk sevgisini, əhdini, ilqarını unutmuş Babək Pərvini tanıyan andan onların danışıqsız, lal görüş səhnəsini əks etdirən kadrlar musiqi ilə müşayiət olunmağa başlayır və maraqlıdır ki, bu musiqi məclisdəki rəqqasə qızların ifa
etdikləri göbək rəqsinin musiqisinin üstünə montaj olunur. Kadr arxasında eşidilən həzin, lirik musiqi məkana daxil edilmiş musiqinin ehtiraslı, coşğun pafosunu tədricən batırır. Lakin bu susqunluq səssiz filmlərdə olduğu kimi, texniki problem təəssüratı

yaratmır. Əslində göbək rəqsinin musiqisi yenə də ifa olunur, qızlar yenə də rəqs edir. Babəklə Pərvinin iri planda verilmiş gözlərini müşayiət edərək kadrı zəbt edən musiqi onların daxili sarsıntılarını, sözlə, hətta baxışları ilə ifadə edə bilmədiklərini əks etdirməklə yanaşı, həm də psixoloji planda məkandan tam təcrid olunduqlarını, obrazlı desək, yalnız öz duyğularının məkanında yaşadıqlarını bildirir. Obrazların dialoqları məhz musiqinin dili ilə verilir.

Rasim İsmayılov “Babək” filminin çəkilişində rejissor tapşırığı və operator sənəti arasında vəhdət yaradıb, çəkiliş meydançasında işini təsvir montaj həllinə yönəldirdi”. Rasim İsmayılov çəkiliş vaxtı aktyorları kinoaparata fikir verməməyə çağırırdı. Əksinə, kinoaparat aktyorun kadr daxilində hərəkətini izləyib onun oyun üslubuna şərait yaratmalıdır, – deyən Rasim İsmayılov Babəkin – Rasim Balayevin əksər iri portret təsvirlərini çəkərkən optikanın və işıqlanmanın hesabına onu kadrın ön planında tam foks şəraitində fondan ayırıb çəkmişdir. O, həm də bəzi səhnələrin dramaturji anlarını daha da təsirli etmək üçün hərəkətli və rakurslu çəkilişlə yanaşı, təzadlı işıqlandırmadan da məharətlə istifadə etmişdi. Filmdə operator işinin dəqiqliyi rejissor fikrinin aydınlığına xidmət etmişdir. Bu prosesdə aktyorun ifa məharəti, sözlə fikrin vəhdətinə xidmət edən psixoloji və fiziki yaşantıları da xüsusi rol oynamışdır.

“Babək” filmi zəngin madii vəsait hesabına çəkilmiş qiymətli bir ekran əsəridir. Onun çəkilişində 200-dən artıq atdan istifadə edilib, bahalı zirehli paltarlar, müxtəlif döyüş ləvazimatı hazırlanıb. Filmin elmi məsləhətçiləri akademik Ziya Bünyadovun, sənətşünas M.Qorelinin məsləhətlərinə əməl edən operator Rasim İsmayılovun, qurluşçu rəssam M.Ağabəyovun, geyim rəssamı T.Tahirovun yaratdığı bədii-tarixi fonun kamilliyi də filmin uğurlarında xüsusi rol oynamışdır. Film “Azərbaycanfilm” kinostudiyasının inciləri sırasında öz mövqeyini qoruyub saxlamağa nail olmuşdur. Lakin filmin yaranma tarixinə nəzər salsaq görərik ki, çətinliklər hesabına ərsəyə gələn bu sənət əsərinin əsl səbəbkarı ümumilli liderimiz Heydər Əliyevdir. Hakimiyyətdə olduğu bütün dövrlərdə sənətə və sənətkara verdiyi yüksək dəyər Azərbaycan kinosunda bu gün də hakim mövqedə dayanmaqdadır. Çünki qadağa qoyulmuş bir Azərbaycan filminin bu gün ekranlarda görünməsinin yeganə səbəbkarı məhz Heydər Əliyevdir. Filmin çəkilişinə Rusiya 650 min rubl, Azərbaycan isə 1 milyon rubl ayırmışdı. Filmə quruluş vermək ilk öncə Həsən Seyidbəyliyə həvalə olunur. Lakin bir müddət sonra film Seyidbəylidən alınıb gənc kinorejissor Eldar Quliyevə verilir. Əslində bu dəyişmənin bir çox səbəbləri var. Bəziləri Həsən Seyidbəylinin səhhəti ilə bağlı olduğunu söyləyir, bəziləri isə rejissorun qarşısına bir sıra dövlət orqanlarının qoyduğu qadağa ilə əlaqələndirir. Və nəhayət ki, Heydər Əliyevin işə qarışması ilə demək olar ki, bir çox məsələlər öz həllini tapdı. “Filmlə bağlı keçirilən iclasda “Rejissora işləməyə mane olmayın”, üzünü Eldar Quliyevə tutub “filmi sona çatdır və yadda saxla ki, məhz səndən tam ciddiliyi ilə tələb edəcəyik,” – deyən Heydər Əliyevin film haqqında verdiyi qərarda deyilirdi: “Respublika Dövlət Kinematoqrafiya Komitəsinin təqdimatına əsasən Azərbaycan SSR Nazirlər Soveti iki seriyalı genişekranlı “Babək” bədii filminin istehsalı ilə bağlı maliyyə-təsərrüfat məsələlərinə baxıb həll etsin. VIII-IX əsrdə Azərbaycanda xalq

kütlələrinin azadlıq hərəkatına və bu hərəkatın görkəmli rəhbərlərindən biri Babəkə həsr olunmuş filmin yüksək ideya-bədii səviyyədə buraxılması üçün lazımi şəraiti təmin etmək nəzərdə tutulsun. "Babək" filminin istehsalının "Mosfilm" və C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyaları tərəfindən birgə həyata keçiriləcəyi məlumat kimi qəbul edilsin". Göründüyü kimi, ümummilli liderimiz Heydər Əliyev bu filmin çəkilməsinə çox böyük önəm verirdi. Məhz onun təşəbbüsü ilə bu film iki kinostudiyanın məhsulu oldu. Bu isə Moskva studiyasının texniki imkanlarından yetərincə istifadə etmək imkanı verirdi. Nəhayət çəkilişlər başa çatdı və filmin təhvili Moskvada keçirildi. İlk baxışdan sonra "Mosfilm"in rəhbərliyi Bakıya Heydər Əliyevə zəng vurdu və uğurlu iş münasibətilə onu təbrik etdi. O, əməkdaşlığa görə təşəkkür edib filmə Bakıdakı baxışın tarixini təyin etdi.

Bununla da "Babək" filmi Rasim İsmayılovun yaradıcılığında xüsusi yer tutan ekran əsərlərindən biri kimi Azərbaycan kino tarixində öz yerini tutdu.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Nəbiyev B. Babək. "Kommunist" qəzeti, Bakı, 1980, 23 may
2. Milli kino barədə söhbət. "Kino" qəzeti, Bakı, 2006, 04 avqust
3. "Советский экран" №4 1980, səh. 10, №18 səh.19
4. "Новые фильмы", 1980, səh.10
5. Aydın Kazımzadə "Kino və zaman", Şərq-Qərb, Bakı, 2016, səh.389.

**Nizami Zaur Gurbanov**

## CINEMATOGRAPHY WORK IN THE MOVIE "BABEK"

**Summary:** The article talks about the film Babek, one of the interesting, high-quality art examples, which was shot by cinematographer Rasim Ismayilov. Rasim Ismayilov, as the cameraman of the film "Babak", very actively participated in the image solution and gave the film an independent and unique look. Lighting is one of the factors that Rasim Ismayilov pays most attention to in the film. Rasim Ismayilov, as the cinematographer of "Babak", gave the film a valuable and unique aesthetic from a visual point of view. Ismayilov described each frame with a meaningful and beautiful style and played a key role in creating a historical and cultural atmosphere for the film.

**Keywords:** Rasim Ismayilov, cinematographer's work, "Babak" film, film, light shadow effect, composition**.**

**Низами Заур Гурбанов**

## ОПЕРАТОРСКАЯ РАБОТА В ФИЛЬМЕ «БАБЕК»

**Резюме:** В статье рассказывается об одном из интересных, качественных художественных образцов – фильме «Бабек», снятом оператором Расимом Исмайловым. Расим Исмайлов, как оператор фильма «Бабек», очень активно содействовал имиджевому решению и придал фильму самостоятельный и неповторимый вид. Освещение – один из факторов, на который Расим Исмайлов обращает наибольшее внимание в фильме. Расим Исмайлов, как оператор «Бабека», придал фильму ценную и уникальную с визуальной точки зрения эстетику. Исмайлов осмысленно и красиво описал каждый кадр и сыграл ключевую роль в создании историко-культурной атмосферы фильма.

**Ключевые слова:** Расим Исмайлов, операторская работа, фильм «Бабек», кинолента, светотеневой эффект, композиция

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.06.2024**